## 2023 – "Heydər Əliyev İli"



**Azərbyacanın ali təhsil müəssisələri içərisində xüsusi yeri və çəkisi olan Naxçıvan Dövlət Universitetinin formalaşması və inkişafı son yarım əsrlik dövrü əhatə edir. 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan ali məktəbin statusu görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbyacanda hakimiyyətə gəlməsi ilə dəyişir. 1972-ci il iyunun 12-də filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılır.**

# Naxçıvan Dövlət Universiteti ulu öndərin yadigarıdır

Bu qərar Naxçıvanda elmin inkişafına, ziyalı mühitinin formalaşmasına və elm adamlarının diqqətinin bölgəyə cəlb olunmasına səbəb olur. 1974-cü il oktyabrın 4-də Naxçıvan Muxtar Respublikasının yaradılmasının 50 illiyi münasibətilə doğma və qədim diyara səfər edən Heydər Əliyev Naxçıvan Dövlət Pedaqoji İnstitutunu ziyarət edir, kollektivlə görüşür. Bu görüş universitetin tarixində mühüm dəyişikliklərin təməlini qoyan fikirlərin səsləndirilməsi ilə yadda qalır. Naxçıvanda dövlət universitetinin yaradılmasına duyulan zərurət ilk dəfə həmin görüşdə məhz, Heydər Əliyev tərəfindən irəli sürülür. Bu hadisədən sonra Naxçıvan Pedaqoji İnstitutuna olan maraq daha da artır, yeni ixtisasların açılması ilə pedaqoji kadrların fəaliyyəti genişləndirilir, yeni alimlər, gənc istedadlar təhsil mərkəzinə cəlb olunur.

1990–1993-cü illər, Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında olduğu zaman Azərbaycanın strateji əhəmiyyətli və qədim torpağının ilk ali məktəbi ilə olan münasibətləri yeni müstəviyə keçir. 29 dekabr 1990-cı il Azərbaycan SSR Nazirlər Sovetinin 29 dekabr 1990-cı il tarixli qərarı ilə institut Naxçıvan Dövlət Universitetinə çevrilir.

Müstəqilliyə yenicə qədəm qoymuş və bu yolda minlərlə şəhid vermiş Azərbaycanın siyasi və iqtisadi böhran keçirdiyi bir dövrdə blokada şəraitində olan Naxçıvan əhalisi üçün Heydər Əliyevin ideyaları xilasa və inkişafa aparan işıq yolu rolunu oynayır. Həmin dövrdə Heydər Əliyev muxtar respublikanın bir çox sahələrində mövcud olan çətinliklərlə olduğu kimi, Naxçıvan Dövlət Universitetinin problemləri ilə də ciddi məşğul olur. Böyük bir ziyalı kütləsini ətrafında birləşdirən ulu öndər onlarla birlikdə universitetin gələcəyi naminə xeyli məhsuldar işlərə imza atır. İlk növbədə, bölgənin gözdən salınmış alim və pedaqoqlarını onları əhatə edən siyasi və mənəvi böhrandan çıxarmağa müvəffəq olur.

Bu dövrdə o, Naxçıvan Dövlət Universitetini iki dəfə ziyarət edir. 12 oktyabr 1992-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilən "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda keçirilmiş beynəlxalq simpoziumda çıxış edən Heydər Əliyev simpoziuma qatılan qonşu ölkə alimlərinin marağını üniversitetə cəlb etməyi bacarır. Onun çıxışı, eyni zamanda, iqtisadi islahatların aparılması, ticarət sektorunun canlandırılması üçün mühüm təklifləri əks etdirir. Bazar iqtisadiyyatına keçid dövrünün yaratdığı problemlər çərçivəsində Heydər Əliyevin məruzəsi ölkə miqyasında yeni anlayışlar olan bəzi iqtisadi məsələlər üçün əyani mühazirə xarakteri daşıyırdı.

Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi münasibətilə həmin ilin 12 noyabrında universiteti təkrar ziyarət edən Heydər Əliyev sadəcə Naxçıvan ali məktəblərində deyil, ümumilikdə, respublika təhsil sistemindəki boşluqlara toxunub problemləri dilə gətirərək müəllim peşəsinin ucalığını qorumağı bu peşənin arzusunda olan hər bir vətəndaşın vəzifə borcu hesab edir: "Müəllim dövri-qədimdən, hələ vaxtı ilə əhalinin əksəriyyəti savadsız olduğu bir dövrdən, lap cəmiyyətdə kiçik bir yer tutduğu vaxtdan həmişə ən yüksək hörmətə malik olan adam, ən yüksək mənəviyyata malik olan adam kimi xalq arasında, kütlə arasında, insanlar arasında qəbul olunmuş bir şəxsiyyətdir. Müəllim – orta məktəb müəllimidir, ali məktəb müəllimidir fərq etməz, bu şöhrətli-şərəfli bir addır. Müəllim – dərs vermək, tərbiyə etmək sahəsində çalışan adam gərək hər dəqiqə bilsin ki, onun dərs deməyə, təhsil verməyə, tərbiyə etməyə mənəvi hüququ var. Mənəvi hüququ olmayan adam gərək öz içində, özündə bu işdən imtina etsin".

Azərbaycanda təhsil sisteminin yeni islahatlara ehtiyac duyduğunu, universitetlərin beynəlxalq əlaqələrinin genişləndirilməsinin zəruriliyini vurğulayan siyasi xadim bu sahədə ilk addımı atmaqdan da çəkinmir.

Heydər Əliyev Azərbaycandan regional baxımdan uzaq düşmüş və bu səbəbdən iqtisadi, sosial, enerji və rabitə problemləri yaşayan Naxçıvan əhalisinin güzəranını yaxşılaşdırmaq, müharibə şəraitində yaşayan ölkə sakinlərinin ruh yüksəkliyini qorumaq məqsədilə gənclərə özünü inkişaf imkanları yaratmağa çalışırdı. Onun islahatlarının təməlində həm də təhsil problemlərinin həlli dayanırdı. Bu məqsədlə, ilk dəfə 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında işbirliyi protokolu imzalanır. Protokola əsasən, ödənişsiz əsaslarla xaricdə təhsil alması planlaşdırılan 100 yerli sakindən 75-i Türkiyənin müxtəlif universitetlərinə göndərilir. Heydər Əliyevin təşəbbüsü ilə Türkiyə hər il 100 məzunun ölkə universitetlərinə qəbul edilməsini, əlverişli təhsil şəraiti ilə təmin edilməsini və muxtar respublikanın elmi kadr hazırlığı prosesinə kömək göstərməyi öz öhdəsinə götürür. Bu proses nəticəsində Azərbaycanda ilk dəfə Naxçıvan Muxtar Respublikasında universitetlərə qəbul zamanı test üsulu təcrübədən keçirilir. Yalnız bu hadisədən sonra, o zamankı respublika rəhbərliyi yerli universitetlərə tələbə qəbulunun test üsulu ilə aparılması üçün addımlar atmağa başlayır və bu məqsədlə may ayında Türkiyədən ölkəyə mütəxəssislər dəvət olunur. Beləliklə, istedadlı gənclərin müəyyənləşdirilməsini asanlaşdıran test üsulu korrupsiya, rüşvətxorluq və digər neqativ halların azalmasına, qəbul prosesinin ədalətli keçirilməsinə səbəb olan mühüm vasitə kimi Azərbaycanda möhkəmlənir.

O dövrdə Naxçıvanda ali təhsilli kadr hazırlığı sahəsində mühüm elmi potensiala malik olan muxtar respublikanın gənc, müstəqil universitetində təhsil almaq istəyən abituriyentlərin yaşadığı çətinlikləri regionun blokada şəraitində olması, müharibə və siyasi çəkişmələrdən doğan ağır yaşam tərzi və ali məktəblərə qəbul prosesinin düzgün aparılmaması ilə əlaqələndirən uzaqgörən lider ölkənin digər regionları ilə yeganə nəqliyyat yolunun hava yolu olduğu bir vaxtda qəbul şərtlərin dəyişdirilməsini vacib amil kimi irəli sürür. Naxçıvanda yaşayan abituriyentlərin tələbə adı qazanmaq üçün çətinliklə Bakıya gedib imtahan verməsi onu narahat edirdi: "İndi Azərbaycanın, əlbəttə ki, yaxın şəhərlərindən Bakıya gəlmək olar. Ancaq onlar gəlməlidir. Çünki Bakıda əgər universitetə girirlərsə, gəlib Bakıda imtahan verəcəklər. Amma, Naxçıvan Dövlət Universitetinə, yaxud Naxçıvan Tibb Texnikumuna qəbul olunan tələbə nə üçün getsin Bakıda imtahan versin və oradan da buraya qayıtsın. Yaxşı olmazmı ki, 15-20 nəfər imtahan qəbul eləyən adam gəlsin bura? Nəinki 3-4 min nəfəri burdan Bakıya çəkib aparırlar. Mən bu gün bu məsələyə öz münasibətimi bildirirəm. Allah eləsin ki, bu tədbirlər yaxşı nəticə versin. Yaxşı nəticə versə, narazılıqlar hamısı geridə qalacaq".

1993-cü ildə Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi hakimiyyətə gəlişindən sonra işıqlandırılan bir çox məsələlər öz həllini tapır. Universitetlərə qəbul imtahanları Bakı şəhəri ilə yanaşı, Naxçıvanda da təşkil olunur.Test imtahanlarının keçirilməsi zamanı Türkiyə sistemindən asılılığa 1995-ci ildə son qoyulur. Belə ki, həmin ilədək imtahanda iştirak edənlərin cavab kartları Türkiyədə çap edilir və imtahandan sonra yenə orada optik oxuyucu qurğu vasitəsilə oxunaraq ixtisaslar üzrə yerləşdirmələr aparılırdı. 1995-ci ildən etibarən həmin formaların kodlaşdırılaraq hazırlanması və emalı Azərbaycanda həyata keçirilməyə başlanır.

Ölkə prezidenti Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyi münasibətilə 1997-ci il oktyabrın 30-da təbrik məktubu ünvanlayır: "Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır. Zəngin maarifçilik ənənələrinin layiqli davamçısı olan bu universitet muxtar respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzidir. Fərəhli haldır ki, bu təhsil ocağının yetirmələri həm Naxçıvanın müxtəlif guşələrində, həm də onun hüdudlarından kənarda uğurla çalışırlar. Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır. Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın "Şərqin qapısı" olduğunu nümayiş etdirir".

Heydər Əliyev Naxçıvan Dövlət Universitetinə hər zaman yüksək qiymət verir və böyük etimad göstərirdi.Naxçıvan Dövlət Universitetinin 75 illik yubileyi ərəfəsində ümummilli lider Heydər Əliyev və onun ideyalarının layiqli davamçısı olan cənab İlham Əliyev Naxçıvana gəlir və universitetin yeni tədris korpusunun açılışında iştirak edirlər. Universitetin yaranmasının təməlini qoyan və onun təşəbbüskarı kimi 30 il sonra yenidən bu məkanda olması və çıxışı zamanı hər sözündə bu torpağa duyulan sevgi və qürur hissi, ən çətin zamanlarda belə məğrur dayanan və xalqı üçün çalışan ölkə başçısının möhkəm iradəsini nümayiş etdirirdi. O, universitetin yarandığı ilk illəri, onun yerləşdiyi ərazinin müəyyənləşdirilməsi üçün atılan addımları, ziyalı təbəqəsinin yetişdirilməsindəki keşməkeşli fəaliyyət yolunu yada salaraq bildirir ki, "Azərbaycanın başqa bölgələrinə nisbətən Naxçıvanda ən çətin şəraitdə yaşayan insanlar quruculuq işləri ilə məşğul olurlar, zəhmət çəkirlər, fədakarlıq, vətənpərvərlik göstərirlər". Ağrılı-acılı günləri, Naxçıvanda sadəcə xalqı yaşatmaq, onların ən təbii ehtiyaclarını qarşılamaq naminə mübarizə apardığı 1990-cı illəri xatırlayan Heydər Əliyev universitetin bu 9 il ərzində keçdiyi yolu, inkişafı və beynəlxalq əlaqələrini yüksək qiymətləndirir və universitetin gələcək elmi potensialına ümidlə baxır.

Ona Naxçıvan Dövlət Universitetinin fəxri doktoru diplomu verilərkən deyir: "Mən fəxr edirəm ki, bir çox böyük dövlətlərin zəngin tarixə malik olan universitetlərinin fəxri doktoruyam. Ancaq daha da çox fəxr edirəm ki, mən Naxçıvan Muxtar Respublikasının universitetinin doktoruyam. Sağ olun.

Mən çalışacağam ki, sizin bu etimadınızı doğruldum. Mənim üçün bu bir də ona görə əzizdir ki, mən ilk təhsilimi Naxçıvanda almışam. Əziz müəllimlərim Naxçıvanda mənə orta təhsil verib məni həyata buraxıblar. Ona görə Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin ən yüksək zirvəsidir. Mən bütünbunlara görə də fəxr edirəm. Çox sağ olun!".

Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinə son ziyarətindən artıq 24 il ötür. Onun 12 iyun 2002-ci il tarixli sərəncamı ilə ali təhsil müəssisəsinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilir.Bu gün universitet 108 hektarlıq ərazidə 13 tədris korpusu, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, Olimpiya İdman Mərkəzi, iki stadion və müasir tipli tələbə evi ilə kompleks şəkildə gənclərə elmlə məşğul olmaq üçün geniş imkan yaradır. Hazırda universitet ərazisində Texnologiyalar Parkı inşa olunmaqdadır.

1967-ci ildə üç ixtisas üzrə üç ştatlı müəllim və 102 tələbə ilə tədris prosesinə başlayan universitetdə bu gün 451 nəfərlik professor-müəllim heyətinin təmsil olunduğu 12 fakültə, 43 kafedra fəaliyyət göstərir. 9 ölkədən 1600 nəfərdən çox xarici tələbənin, ümumilikdə isə 7900-ə yaxın tələbənin təhsil aldığı 56 yaşlı universitet müasir tədris üsulları ilə beynəlxalq göstəricilərə əsasən Azərbaycan universitetləri içərisində ilk sıralarda yer alır. Bakalavr səviyyəsi üzrə 70 ixtisas müvafiq olaraq 34 dövlət təşkilatının, subbakalavr səviyyəsi üzrə 13 ixtisas 4 dövlət təşkilatının hamiliyinə verilməklə, tələbələrə gələcək iş yerlərində təcrübə keçmək, ixtisas üzrə çalışan mütəxəssislərdən dərs almaq imkanı verilir.

Yarandığı vaxtdan bu günədək doqquz rektorun rəhbərlik etdiyi NDU-da son 4 ildə dünya təhsil sisteminə inteqrasiya məqsədilə atılan addımlar universiteti beynəlxalq rəqabətqabiliyyətli təhsil mərkəzinə çevirib. Tələbələrin bilik və bacarıqlarının, yaradıcılıq və təşkilatçılıq qabiliyyətlərinin inkişafına, asudə vaxtlarının səmərəliliyinə imkan yaradan tələbə təşkilatları, xor, vokal və rəqs qrupları, idman klubları ilə yanaşı, innovativ ideyaların üzə çıxarılmasına xidmət göstərən "İnnovasiya mərkəzi" və "İnnovasiya laboratoriyası" fəaliyyət göstərir.

Kitabxana-İnformasiya İdarəetmə sistemi vasitəsilə 5400 adda 40.000 sayda kitabın elektron kataloqu, o cümlədən, 4500-dən artıq kitabın isə tammətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilib.

Hazırda universitetdə 3 internet mərkəzi, media mərkəzi, universitet televiziyası (UTV), "Nuhçıxan" radiosu, nəşriyyat, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti və bir neçə muzey fəaliyyət göstərir.

Qlobal təhsil sisteminə inteqrasiya məqsədilə, universitet Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsini həyata keçirərək, layihə çərçivəsində Distant təhsil mərkəzini istifadəyə verib.

IELTS qeydiyyat və imtahan mərkəzinin universitetə gətirilməsi müəllim və tələbələrin xarici dil imkanlarını genişləndirməklə, beynəlxalq dil sertifikatlarına əlçatımlılığı təmin etmək məqsədi daşıyır. Universitet bu gün 140-dan çox ölkənin ali təhsil müəssisəsi ilə beynəlxalq əlaqələrə malikdir. ABŞ, İngiltərə, Çin, Rusiya, Fransa, Almaniya, İspaniya, Cənubi Koreya, Rusiya, Misir, Pakistan, İran, Özbəkistan və digər ölkələrlə yanaşı, 2022-ci ildə Yaponiya universitetləri ilə əsası qoyulan yeni əməkdaşlıq əlaqələrin geniş məcrada aparıldığına əyani nümunədir. Mövcud əlaqələrin fonunda Türkiyə universitetlərinin özünəməxsus yeri olmaqla yanaşı, bu əməkdaşlıq universitetlərarası ikili diplom layihələrinin reallaşdırılmasına zəmin yaradıb.

Bir vaxtlar Heydər Əliyevin ilk addımlarını atdığı böyük işlər bu gün öz nəticəsini göstərir. Onun universitetlə son görüşündə də dediyi kimi, "Naxçıvan blokada şəraitində əyilməyibdir, dözübdür, bundan sonra da yaşayacaqdır."

**Elnarə ALLAHVERDİYEVA,**
**Naxçıvan Dövlət Universiteti,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**